**Azərbaycanın apardığı uğurlu xarici siyasət, TANAP-ın Türkiyənin İpsala qəsəbəsində təntənəli açılış mərasimi, müxtəlif ölkələrlə əməkdaşlıq məsələləri və digər mövzular xarici mətbuatın diqqətində olub, bu barədə məqalələr dərc edilib. Avropanın “Emerging Europe” nəşrində (emerging-europe.com) “Azərbaycan və Türkiyə Trans-Anadolu təbii qaz boru kəmərinin açılış mərasimində” sərlövhəli məqalə dərc edilib.**




# Xarici mətbuat Azərbaycan haqqında

Dominik Istratenin müəllifi olduğu məqalədə göstərilir ki, Cənub Qaz Dəhlizinin ən mühüm qolu olan TANAP layihəsi ilə Türkiyə və Avropa Azərbaycanın təbii qazı ilə təmin ediləcəkdir. Təntənəli mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından bəzi məqamlara da yer ayrılıb. Prezidentin TANAP-ın açılışını hər iki ölkə üçün tarixi gün adlandırması və bu layihənin təkcə Azərbaycan və Türkiyə üçün deyil, qonşu xalqlar üçün də fayda və tərəqqi gətirəcəyi ilə bağlı fikirlər məqalədə xüsusi vurğulanıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, layihə Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Bəzi ölkələr–Şimali Makedoniya, Albaniya, Serbiya, Bosniya və Hersoqovina da, həmçinin bu TANAP-dan faydalanacaq.

Məqalədə Gürcüstan Baş naziri Giorgi Qaxarianın tvitterdə TANAP layihəsi barədə yazdığı fikrə diqqət yönəldilib: “Bu layihə insanlarımız üçün daha çox imkanlar qazandıracaq və Şərq-Qərb enerji dəhlizi regionumuzun rolunu gücləndirəcək”.




Məqalədə ölkəmizin SOCAR şirkətinin, Türkiyənin BOTAŞ və Böyük Britaniya və Şimali İrlandiya Krallığının bp şirkətinin TANAP layihəsində payı olmaları qeyd edilir.

İsrailin “Yerusalim Post” qəzetinin saytında “Azərbaycan–İsrail münasibətlərində son dövrdə atılan addımlar” sərlövhəli məqalə dərc edilib. Məqalədə hər iki ölkə arasında uğurlu əməkdaşlıq və dostluq, strateji əlaqələrin yüksək səviyyədə olmasından bəhs edilir. Azərbaycanın “tolerantlıq vadisi” olduğunu xatırladan müəllif ölkəmizdə əsrlərdən bəri yaşayan yəhudi icmasının üzvlərinin azərbaycanlılar tərəfindən hər zaman cəmiyyətin bir üzvü kimi görüldüyünü bildirib. Məqalədə, həmçinin ölkəmizdə tolerantlıq mühiti nəticəsində bütün dini və etnik azlıqların bərabər şəkildə fəaliyyət göstərdikləri vurğulanıb.

Müəllif bildirir: “Bu tarixi faktdır ki, Avrasiya bölgəsində heç bir ölkənin İsraillə Azərbaycan qədər yaxın strateji əlaqələri yoxdur. Azərbaycan və İsrail arasında dostluq və inama əsaslanan əməkdaşlıq ənənələri beynəlxalq tərəfdaşlığın nümunəvi modelidir. Ən çətin dövrlərdə bu ölkələr birlikdə hərəkət etmiş və bir-birlərinə qarşılıqlı dəstək göstərmişlər”.

Məqalədə iki ölkənin, həmçinin yaxın hərbi əməkdaşlığı da xüsusi qeyd edilir. Azərbaycanda yaşayan yəhudilərin ölkənin ictimai-siyasi, mədəni həyatında fəallıq göstərməsi vurğulanır. Bu il “Aziz” Azərbaycan–İsrail Beynəlxalq Assosiasiyasının nümayəndələrinin respublikamıza səfəri çərçivəsində Bakı və Qubada görüşlər keçirməsi, eləcə də İsrail–Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşləri, Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin İsrailə səfərləri və görülmüş işlər barədə də ətraflı məlumat verilir.

Prezident İlham Əliyevin Türkiyənin Nəqliyyat və İnfrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi və iki ölkənin bundan sonra da əməkdaşlığı barədə səsləndirdiyi fikirlər Türkiyə mediasında da işıqlandırılıb.

“Anadolu” agentliyi həmin görüşdə Prezident İlham Əliyevin TANAP layihəsinin iki ölkənin dostluq layihəsi olduğunu, Türkiyənin informasiya texnologiyaları sahəsində böyük uğurlar əldə etdiyini vurğulamasını xüsusi qeyd edib.

Prezident İlham Əliyev daha sonra bildirib: “Türkiyədə elmi potensial da çox güclüdür. Əlbəttə ki, biz bu sahədə də sıx əməkdaşlıq etmək istəyirik. Çünki dünyanın gələcək inkişafı böyük dərəcədə bu innovasiyalardan, texnoloji inkişafdan asılıdır. Burada birgə elmi araşdırmalar, tətbiqi tədbirlər, əlbəttə ki, bizim əməkdaşlığımızı daha da gücləndirəcək”.

*Əfsanə BAYRAMQIZI,*
*“Xalq qəzeti”*